

Etibar Etibarlı

## "BƏXTƏVƏR PİŞİK"

Qısılıb bu soyuq divar dibinə,
Nəyi gözləyirsən qarda-yağışda?
Anladım,
 möhtacsan yavan tikəyə...
Bağışla, ay pişik,
məni bağışla!

Baxma məlul-məlul, büküb boynunu
əlacsız əl açan dilənçilərtək.
Cibimdə verəsi yeyəcəyim yox,
Versəm,
qəpik-quruş nəyinə gərək?!

Gözündən bəllidir ac olanların
günü-güzəranı, halı necədir!...
Axtar Qavroş kimi öz qismətini,
Küçədə doğuldun,
yerin küçədir.

Sənin həmcinsin var bir tanış evdə,
yüz yol tüklərinə sığal çəkilir.
Pərqu döşəyinə,
qu yastığına
müşk-ənbər qoxuyan ətir tökülür.

Necə nazlanmasın "bəxtəvər pişik",
qulluğunda duran
dayəsi varsa?
Ənlikli-kirşanlı sahibəsinin
"London qarısı"tək
 qayəsi varsa?

Silməz göz yaşını bir kimsəsizin
o karyerist "xanım"--
qartımış "mələk".
Ölsə, nazlı pişik özündən qabaq,
yəqin cah-calallı ehsan verəcək.

Acımır halına ötüb keçənlər,
Siçan da bilir ki, üzüyolasan.
Görsən o qarıya yalmananları,
Vallah, istəməzsən
insan olasan!

Heyf, belələri hər məkanda var,
Qanmazsan,
 fukrim yox hər sirri açam.
Dükana gedirəm...
Bir şey tapmasan,
gözlə, əlidolu qayıdacağam!...

## TANRI SEÇDİ

Tanrı seçdi-taleyimiz yazıldı,
Qismətimiz-dar keçidlər, dalanlar.
Düzəlmədi qozbel qəddi dünyanın,
Çünki onun mayasında yalan var!

Gözəlliyə vuruldum bir üzündə,
İlahidən ikicə göz istədim.
O birində riya gördüm-mat qaldım,
Qələmimdən kəsərli söz istədim.

İndi dünyam dörd divarın arası,
Öz qınında boğulan bir yarağam.
Girifdaram çarəsiz dərd əlində,
Son şöləsi öləziyən çırağam.

Əjdər Olum, əziz dostum, neyləyək?
Şair ömrü keçilməz bir yoldu, yol!
Əldən qələm, dildən sözün düşdümü,
Durma, tələs, bir heçliyə yoldaş ol!...

## TƏSADÜF

İllərin ardından çıxıb gəlmisən,
Yaman bənzəyirsən o vəfasıza.
Gör harda,
bu yayın qızmar çağında
qaytardın sən məni o son payıza.

Əlinin istisi hopdu canıma,
Od atdın,
qaladın sonmüş ocağı.
Tale usanmadı iştəklərindən-
ömrümüz əlində
dərd oyuncağı.

Zaman əl gəzdirib gur saçlarına,
Solğun bənizində narın bir kədər.
Mənimtək birinin
eşqi ucundan
yanmağın bəlkə də
hədərmiş, hədər!

Yaşadıq... Nə verdik?
Nəyi götürdük?
Nəyimiz vardısa aldı bu dünya.
Ağlatdı,
ovutdu (siri-xudadır)
Bizi tilsiminə saldı bu dünya.

Ömrün qış çağında nə qismətdi bu?
Niyə qarşılaşdıq?
Mən kiməm, sən kim?
Axı, nə haqqım var, nə ixtiyarım
məhrəm tellərinə bir sığal çəkim.

Acı təsadüfdür...
Gileylənməyək!
Fürsətdir sevinib ağlamaq üçün.
Tale görüşdürdü bizi bəlkə də
yenidən həyata
bağlamaq üçün!...

## QƏZƏL

Səni bu hüsnü-camailən, bu lütfilən görüb,
Qorxdular həq deməyə, döndülər insan dedilər.
NƏSİMİ.

Götürüb qəm yükünü övladi-Şirvan dedilər,
Sənə zülmətdə yanan şami-qəriban dedilər.

Axı, o neyləyəcək kölgə düşən dan üzünə?
Qaniçənlərdir hələ hakimi-dövran dedilər.

Zəmanə meydan açıb zahidi biganələrə,
Haqqı batil eləyir bir sürü nadan dedilər.

Səhrayi-Məcnun olub düşsə də həq sevda-
sına,
Qalacaq çari-naçar, tənha-giriban dedilər.

Elə ki, nur çilədin dərdli könüllər mülkünə,
Yaxar axır özünü bu şəmsi-nalan dedilər.

Soyuldun sərpa, Nəsimi, pak amal uğrunda
Olmaz belə məxluq, belə bir can dedilər.

Qalxdın zamanın ün yetməz fövqünə ki,
Qorxdular həq deməyə, həqqi-laməkan dedilər.

Səni qibləgahı sanıb, səcdə qılır Etibarlı,
Qapılıb boş xəyala zərreyi-ümman dedilər.

## ŞİRVANIN

(İxtisarla)

Ulu babaların yurdu, yuvası,
Bilinməz neçədir yaşı Aveyin.
Təmiz təbiəti, təmiz havası,
Ülvidir, torpağı, daşı Aveyin.
Hüseyn ARİF.

Sözü min illərlə sınaqdan keçib,
Tarixi həsəddən, qınaqdan keçib,
Daş üstdə yazılı soraqdan keçib,
Qədimdən qədimdir yaşı Şirvanın!

Şikəstə, gəraylı üstdə köklənib,
Hər pərdə dinəndə daş çiçəklənib.
Vaxt olub dörd yandan elə təklənib,
Bir an çatılmayıb qaşı Şirvanın!

Ulu Babadağı dağların şahı,
Sərhədsiz meydandır hər düzəngahı.
Gəz, gör neçə-neçə ziyarətgahı-
Tütyədir torpağı, daşı Şirvanın.

İndi özü boyda dağdı Gülüstan,*
Basılmaz qalaydı-tarixi dastan.
Enməz qüruruna yağı da heyran,
Zümrüd üzüyünün qaşı Şirvanın!

Xaqani dünyanı abad istədi,
Fələki fələkdən imdad istədi.
Nəsimi "həq" dedi, murad istədi--
Yandı ürəyinin başı Şirvanın!

Bir yurdun açılmaz min sirri varsa,
Seyidi, Hadisi, Sabiri... varsa,
Bilalı, Abbası, Şakiri... varsa-
Biri yadın olub, beşi Şirvanın!

Səslən lap yavaşdan, yeri lap asta,
Bir ağır ocaq var hər yolun üstdə,
Bir bülbül oxuyur hər kolun üstdə--
Muğam körüyüdür döşü Şirvanın!

Qoyma, aqil durub, nadan danışsın,
Günə ağız büzüb, Aydan danışsın,
Dərədən danışsın, çaydan danışsın-
Qədrini nə bilər naşı Şirvanın!

O mənim elimdir-dağ vüqarlıdır,
Hikmətdən, sevgidən, sözdən varlıdır.
Etibar yurduna etibarlıdır-
Varlığı, ürəyi, nəşi Şirvanın!

----------------------

* Şirvanşahların Şamaxı şəhərindəki qədim Gülüstan qalasına işarədir.